İqtisadi İslahatların
Təhlili və Kommunikasiya
Mərkəzi



# İXRAC İCMALI

İyul 2026

www.ereforms.gov.az
info@ereforms.gov.az

## "BİZİM XARİCİ VALYUTADA OLAN EHTİYATLARIMIZ XARİCİ BORCUMUZU DEMƏK OLAR Kİ, 20 DƏFƏ ÜSTƏLƏYİR.

Hesab edirəm ki, bu göstəriciyə görə Azərbaycan çox sabit maliyyə vəziyyəti, tarazlaşdırılmış büdcəsi olan aparıcı ölkələrdən biridir və bu hal reytinqimizi investisiya reytinqinə qaldıran “Moody's” və “Fitch” kimi aparıcı reytinq agentlikləri tərəfindən dəyərləndirilir. Onların verdiyi proqnoz müsbət və sabitdir. Beləliklə, iqtisadi inkişafımızla bağlı hər hansı bir çətinlik görmürük və irimiqyaslı sosial proqramlarımız da buna uyğundur".



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 18 iyun 2026-cı il tarixində Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimində çıxışından**

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 13

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ____ səh. 16

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2026-cı ilin yanvar-iyun ayları ərzində qeyri-neft-qaz ixracı 1,9 milyard ABŞ dolları təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın 2026-cı il üzrə iyul sayını təqdim edib. İcmala əsasən, 2026-cı ilin yanvar-iyun aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 16,9% artaraq 1,9 milyard ABŞ dolları təşkil edib.

Cari ilin iyun ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) ötən ilin eyni dövrü ilə müqayisədə 18,2 faiz artaraq 381,9 milyon ABŞ dolları təşkil edib. Bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 19,4 faiz artaraq 175,3 milyon ABŞ dollarına, qeyri-yeyinti məhsullarının ixracı (qeyri-monetar qızıl istisna olmaqla) isə 17,3 faiz artaraq 206,5 milyon ABŞ dollarına bərabər olub.

Cari ilin yanvar-iyun aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 3,4 dəfə, pambıq iplik 2,1 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 50%, alüminium və ondan hazırlanan məmulatlar 40,1%, qara metallar və onlardan hazırlanan məmulatlar 30,1%, pambıq lifi 26,3%, meyvə-tərəvəz 18,9%, çay 19,4%, spirtli və spirtsiz içkilər isə 2,9% artıb.

2026-cı ilin yanvar-iyun aylarında aqrar məhsullar üzrə

ixrac 23,9% artaraq 563,9 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac 35,3% artaraq 195,9 milyon ABŞ dolları təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 26,6% artaraq 759,8 milyon ABŞ dollarına bərabər olub.

Qeyd olunan dövrdə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (202,2 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda tomat (163,8 milyon ABŞ dolları) ikinci, mis filizləri və konsentratları (135,9 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin iyun ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında tomat (44 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (34,5 milyon ABŞ dolları) ikinci, çiyələk (29,4 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin yanvar-iyun aylarında (qeyri-monetar qızıl istisna olmaqla) Rusiya Federasiyasına 596,1 milyon ABŞ dolları, Türkiyəyə 350,7 milyon ABŞ dolları, Gürcüstana 279,8 milyon ABŞ dolları, İsveçrəyə 213,9 milyon ABŞ dolları, Ukraynaya isə 73,4 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. 2026-cı ilin iyun ayında Rusiya Federasiyasına 162,4 milyon ABŞ dolları, Gürcüstana 50 milyon ABŞ dolları, Türkiyəyə 44,6 milyon ABŞ dolları, İsveçrəyə 35,2 milyon ABŞ dolları, Amerika Birləşmiş Ştatlarına 14,4 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib



# 2026-CI İLİN YANVAR-İYUN AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)*

2026 İXRAC İCMALI iyul




* qeyri-monetar qızıl istisna olmaqla


İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN İYUN AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2026 İXRAC İCMALI iyul

2025 | 2026

+18.2%

322.9 mln



381.9 mln

* qeyri-monetar qızıl istisna olmaqla

# 2026-CI İLİN İYUN AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)






* qeyri-monetar qızıl istisna olmaqla

İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN YANVAR-İYUN AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2025-ci ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2026 İXRAC İCMALI iyul

Aqrar məhsullar

Aqrar-sənaye məhsulları

**759.8 mln $**

2025/2026 **+26.6%**



2025/2026 **+23.9%**

**563.9 mln $**

**195.9 mln $**

2025/2026 **+35.3%**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2026-CI İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI iyul

| 2026 | | 2025 |
|---|---|---|
| 596,1 mln | Rusiya | 586 mln |
| 350,7 | Türkiyə | 287,2 |
| 279,8 | Gürcüstan | 154,8 |
| 213,9 | İsveçrə | 151,5 |
| 73,4 | Ukrayna | 95,8 |

# 2026-CI İLİN İYUN AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026 İXRAC İCMALI iyul



# 2026-CI İLİN YANVAR-İYUN AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)*

| | 2026 | 2025 |
|---|---|---|
| Qızıl | 202,2 | 144 |
| Tomat (pomidor) | 163,8 | 149 |
| Mis filizləri və konsentratları | 135,9 | 12,3 |
| Pambıq lifi, daranmaya məruz qalmamış | 125,9 | 98,6 |
| Meşə fındığı | 95,3 | 76,2 |
| Karbamid | 73,3 | 92,4 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 71,9 | 20,9 |
| Çiyələk | 67,1 | 27 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 58,9 | 48,4 |



* qeyri-monetar qızıl istisna olmaqla

# 2026-CI İLİN İYUN AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2025-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2026
İXRAC İCMALI
iyul

| | 2026 | 2025 |
|---|---|---|
| Tomat (pomidor) | 44 | 35,2 |
| Qızıl | 34,5 | 22,7 |
| Çiyələk | 29,4 | 14,5 |
| Mis filizləri və konsentratları | 23,3 | 2,9 |
| Təzə albalı və gilas, digərləri | 21,5 | 18,6 |
| Karbamid | 19,8 | 13,5 |
| Ağ şəkər və kimyəvi cəhətdən təmiz digər saxaroza | 17,1 | 8,1 |
| Metanol (metil spirti) | 15,3 | 5,9 |
| Kartof, təzə və ya soyudulmuş, digərləri | 14.8 | 5 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2026-cı ilin yanvar-iyun ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunublar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "Prime Export" MMC, "Agrarco" MMC, "Silk Way Aviaşirkəti" MMC, "Vvest Stream" MMC, "Tabaterra" MMC və "P-Aqro" MMC.

Qeyri-neft sektoru üzrə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına "Socar Polymer" MMC başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunublar: "Azergold" QSC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərbaycan Hava Yolları" QSC, "Azərenerji" ATSC, "Naxçıvan Enerji" MMC və "Socar Cape" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2026-CI İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2026 İXRAC İCMALI iyul



# 2026-CI İLİN YANVAR-İYUN AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** "AzerGold" QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2026-cı ilin yanvar–iyun aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 33 ölkəsindən olan 90-a yaxın şirkətə telekommunikasiya xidmətləri göstərilib.

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2026-cı ilin yanvar–iyun aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 33 ölkəsindən olan 90-a yaxın şirkətə 13,1 milyon ABŞ dolları dəyərində telekommunikasiya xidmətləri göstərilib. Bu dövr ərzində formalaşan ümumi gəlirlərin 63 faizini ixrac əməliyyatları təşkil edib.

Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 2,2 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,6 milyon ABŞ dolları ilə Lüksemburq, 605,4 min ABŞ dolları ilə Türkiyə, 603,4 min ABŞ dolları ilə Pakistan və 327,9 min ABŞ dolları ilə Misir qərarlaşıb.

# 2026-CI İLİN YANVAR-İYUN AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 8.2 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

Xidmət ixrac etdiyi 5 əsas ölkə



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47




İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
Center for Analysis of Economic Reforms and Communication
Центр Анализа Экономических Реформ и Коммуникаций

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən “İxrac İcmalı” jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat